# Azərbaycan–Rusiya münasibətləri:
# Strateji tərəfdaşlıq möhkəmlənir

**Böyük tarixə malik Azərbaycan–Rusiya münasibətləri bu gün də yüksələn xətlə inkişaf edir. Ölkəmizin müstəqillik qazanmasından sonra əlaqələrin möhkəmləndirilməsi, strateji münasibətlər səviyyəsinə qaldırılması ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdur. Son illərdə Prezident İlham Əliyevin ciddi səyləri ilə bu proses daha da güclənmiş və sarsılmaz dostluq telləri ilə bağlanmışdır. Bu barədə Prezident İlham Əliyevin Rusiyanın dövlət başçısı Vladimir Putinlə görüşlərində də dəfələrlə qeyd edilmişdir. Həm Azərbaycan lideri, həm də Rusiya Prezidenti münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsinə qalxmasından, ticari-iqtisadi, eləcə də humanitar sahələrdə əməkdaşlığımızdan məmnunluqlarını ifadə ediblər.**



Dekabrın 2-də Bakıya səfərə gəlmiş RF Xarici İşlər naziri Sergey Lavrovu qəbul edərkən Prezident İlham Əliyev dövlət rəsmilərinin müntəzəm səfərlərinin yaxşı ənənəyə çevrildiyini qeyd etdi. Onun sözlərinə görə, bu il Rusiyanın dövlət başçısı ilə beynəlxalq tədbirlərdəki ünsiyyətdən əlavə, iki dəfə – Pekində və Soçidə görüşmüşlər. 2019-cu il münasibətlərin inkişafı baxımından daha çox uğurlu olmuşdur. Azərbaycan və Rusiya qarşılıqlı siyasi və iqtisadi əlaqələri möhkəmləndirmiş, beynəlxalq təşkilatlarda bir-birini fəal şəkildə dəstəkləmişlər. Rusiyanın AŞPA-da üzvlüyünün bərpasında Azərbaycanın bu təşkilatdakı nümayəndə heyəti fəal rol oynamış, öz dəstəyini göstərmişdir.

Azərbaycan Prezidenti Rusiya XİN başçısı ilə söhbətində ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın noyabrın axırlarında Rusiyaya rəsmi səfərinə də toxunaraq bildirmişdir ki, bu səfər də çox uğurlu olmuşdur. Rusiyada Mehriban Əliyeva yüksək səviyyədə qarşılanmış, Prezident Vladimir Putin tərəfindən qəbul olunmuş, “Dostluq” ordeni ilə təltif edilmişdir. Birinci vitse-prezident Rusiya hökumətinin başçısı Dmitri Medvedev və Federasiya Şurasının sədri Valentina Matviyenko ilə də yüksək səviyyəli görüşlər keçirmişdir. Bütün bunlar dərin tarixə malik Azərbaycan-Rusiya münasibətlərinin get-gedə daha da möhkəmləndiyini və zənginləşdiyini göstərir.

Prezident İlham Əliyev iqtisadi əlaqələr sahəsində də ciddi irəliləyişə nail olunduğunu, il başa çatmasa da, əmtəə dövriyyəsinin 25 faiz artdığını, nəqliyyat sahəsində müsbət dinamika yarandığını da qeyd etmişdir.

Sergey Lavrovun səfəri çərçivəsində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsas müzakirə mövzusu olacağını bəyan edən Azərbaycanın dövlət başçısı nizamlama prosesində “nəzərəçarpan nəticələr” olmadığını, Ermənistan rəhbərliyinin səmərəsiz siyasətini davam etdirdiyini, xüsusən “Qarabağın Ermənistan olması” barədə yersiz bəyanat səsləndirməklə sülh prosesinə zərbə vurduğunu qeyd etmişdir. “Şadam ki, həm sizin tərəfinizdən, həm də digər ölkələrdən olan həmsədrlər tərəfindən, yumşaq desək, bu qəribə bəyanata düzgün qiymət verilib”.

Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov da Prezident İlham Əliyevlə görüşündə deyib ki, münasibətlərimiz yüksəlişdədir. Buna stimul verən isə, təbii ki, Prezident Putin və Prezident İlham Əliyev arasındakı sıx dostluq münasibətləridir. Həm Çində, həm də Soçidə “Valday” Forumunda iki ölkə liderinin iştirakı ilə çox faydalı görüşlər və dünya siyasətinin və regional siyasətin mühüm problemlərinə dair çox maraqlı diskussiya aparılıb. Eyni zamanda, iki ölkə arasında əmtəə dövriyyəsi sürətlə artır: “Əmtəə dövriyyəsinin həcmi yəqin ki, 3 milyard dollara yaxın olacaq. Rusiya Federasiyasının Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarının həcmi 1,5 milyard dollar olub. Rusiya Federasiyasının 70-dən çox subyekti Azərbaycanla əməkdaşlıq edir. Azərbaycanda Rusiya kapitalının iştirakı ilə 300-dən çox müəssisə fəaliyyət göstərir. Rusiyada da Azərbaycan kapitalı öz mövqelərini getdikcə möhkəmlədir”.

Lavrov bundan sonra da Azərbaycan və Rusiya üçün xüsusi maraq doğuran mühüm məsələlərin həllinə, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına ölkəsi tərəfindən kömək göstəriləcəyini bildirib. Onun sözlərinə görə, həm Vyana sammitində, həm sonradan nazirlərin Moskva görüşündə razılaşdırılmış etimad tədbirləri, humanitar əlaqələr, kütləvi informasiya vasitələri xətti ilə əlaqələrin nizamlanması istiqamətində işlər gedir. Bəzi addımlar tədricən reallaşdırılır: “Sizinlə razıyam ki, siyasi nizamlama, uzunmüddətli nizamlama baxımından hələ çox iş görülməlidir. Burada Sizin bu tezisinizi tam dəstəkləyirəm ki, hər iki tərəfin bəyəndiyi əsas prinsiplərə, BMT Nizamnaməsində və Helsinki Yekun Aktında təsbit olunmuş prinsiplərə zidd olan ritorikadan çəkinmək lazımdır”.

Xatırladaq ki, Sergey Lavrov bir müddət əvvəl Ermənistanın baş naziri Nikol Paşinyanın “Qarabağ Ermənistandır” bəyanatına münasibət bildirərək demişdi: “Tərəflər yetərincə ciddi bəyanatlar, o cümlədən Qarabağın Ermənistan olması barədə bəyanatlar verirlər. Şübhəsiz ki, belə bəyanatlar siyasi prosesin tənzimlənməsinə kömək etmir”.

Azərbaycan Prezidenti İlham Əliyev Soçidə keçirilmiş "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı zamanı münaqişənin nizamlanması ilə bağlı bəzi məqamlara, o cümlədən Paşinyanın “münaqişənin həlli Azərbaycan xalqı, Ermənistan xalqı və Dağlıq Qarabağ xalqı üçün məqbul olmalıdır” kimi sərsəm bəyanatına münasibət bildirmişdi: “Dağlıq Qarabağ xalqı” məfhumu mövcud deyil. Dağlıq Qarabağın əhalisi var, münaqişə başlayana qədər bu, bərabər hüquqlara malik olan Azərbaycan və erməni əhalisindən ibarət idi. Azərbaycan üçün hansı həll variantının məqbul olmasına gəldikdə isə, o, Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunmasından, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən, Dağlıq Qarabağa qayıtmasından ibarətdir. Bu, Təhlükəsizlik Şurasının qətnamələrinə və Helsinki Yekun Aktına uyğundur”.

Bakıya səfəri çərçivəsində dünən Lavrov XİN başçısı Elmar Məmmədyarovla da görüşüb. İnanırıq ki, bu görüş də Rusiya–Azərbaycan münasibətlərinin inkişafına yeni impuls verəcək.

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***